YENİ TƏFƏKKÜR Yüksəlişə doğru yol!

# Zəfər tariximizin tədqiqinə yeni yanaşma

***Azərbaycanın müstəqilliyin elan olunması, müstəqilliyin bərpa edilməsi, dövlət suverenliyin bərpası fərqli tarixi hadisələrdir. Ölkəmiz yeni Dövlətçilik erasının lap əvvəlində, ərazi bütövlüyünün bərpası məqsədi ilə, I və II Qarabağ müharibələrini yaşamış, ərazilərinin tam azad edilməsi üçün antiterror tədbirlərini həyata keçirməli olmuşdur. Azərbaycan dövlətində qayıdış, dirçəliş, böyük qayıdış da mühüm tarixi hadisələrdir. Bu baxımdan müasir Azərbaycan tarixinin dövrləşdirilməsi, zənnimizcə, əsaslı tədqiqat, xüsusi yanaşma tələb edir. Şübhəsiz ki, 44 günlük Vətən müharibəsi tariximizin ən şanlı hadisələrindən biri kimi həmişə diqqət mərkəzində olacaqdır.***

Şanlı Qələbədən ötən hər gün onun əhəmiyyətini ölkəmizdə və dünyada dayanmadan yüksəldir. Biz Azərbaycanlılar üçün bu qələbə milli mənliyimiz hissiyyatımız və qürurumuzun , İşğal dövründə nə qədər zədələndiyini dərk etməmiz baxımından hər ötən gün artan dəyərdir. Dünya baxımından isə Qarabağ Zəfəri, son 5 ildə baş verən hərbi konfliktlərdə istifadə olunan texnoloji və taktiki vasitələrin müqayisəlilik meyarına çevirilmişdir. Zəfərin Ali Baş Komandanı, Azərbaycan Respublikası Prezidentinin dəfələrlə dediyi ki, bu qələbə Xalq, Dövlət və Ordunun sarsılmaz birliyinin təcəssümü kimi, dünyanın nüfuzlu hərbi mərkəzlərində öyrənilməkdədir.

Hüquq elmləri üzrə fəlsəfə doktoru Vəfaddin İbayevin bu yaxınlarda çapdan çıxmış, elmi ictimaiyyətin və geniş oxucu kütləsinin diqqətini cəlb etmiş, gündəmdə ön plana keçmiş "Suverenliyin zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar, siyasi paralellər" (Bakı, HİHİ nəşri, 2025, 466 səh.) kitabı istər yuxarıda qeyd etdiyimiz, istərsə də bir sıra digər aspektlərdən həm elmi-nəzəri, həm də elmi-praktik əhəmiyyətə malikdir. Müəllifin suverenliyin zəfər yoluna elmi-metodik yanaşması isə xüsusilə diqqəti cəlb edir.

Hər şeydən əvvəl, onu qeyd edək ki, V.İbayev "reallaşan ideyalar", "hüquqi əsaslar" və "siyasi paralellər" kimi ayırdığı üç fərqli istiqaməti kitabın adında təqdim etmiş, xülasədə hər xəttin ümümi konturlarını cızmışdır. Tədqiqatın obyektini 44 günlük müharibə Azərbaycan Prezidentinin xalqa müraciətlərində, çıxış və müsahibələrindəki fikirlər təşkil edir ki, müəllif hər fəsildə bu fikirlərdən birini önə çəkir, təhlil və araşdırmanı onun üzərində qurur. İlk baxışdan belə bir təəssürat yaranır ki, müəllif yalnız 44 günlük müharibə dövrünü araşdırmağı nəzərdə tutmuşdur. Ancaq elə birinci fəsildən aydın olur ki, kitab müasir tariximizin Ulu öndər Heydər Əliyevin qayıdışından başlayaraq 10.11.2020 tarixədək dövrünü bu və ya digər şəkildə əhatə edir. Burada vacib məqamlardan biri odur ki, ümummilli liderin qayıdışından başlayaraq cənab İlham Əliyevin Azərbaycan Prezidenti seçilməsinədək bir mərhələ və İlham Əliyevin prezident seçilməsindən sonra Vətən müharibəsinin birinci gününədək müddəti əhatə edən ikinci mərhələ monoqrafiyada əvvəldən axıra qədər müxtəlif məsələlərlə bağlı üzə çıxır. Müəllif bunun səbəbini kitaba daxil etdiyi "reallaşan ideyalar" anlayışı ilə bağlı xülasəyə daxil etdiyi yığcam izahda aydınlaşdırmışdır.

Müasir tariximizin dövrləşdirilməsi müxtəlif meyarlar üzrə, fərqli amillərin nəzərə alınması ilə aparıla bilər. Zənnimizcə, belə amillər arasında siyasi, iqtisadi, idarəetmə, dövlət üçün vacib strukturların vəziyyəti və s. yer ala bilər. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı zamanı ölkədə bir çox sahələrdə qeyri-sabitlik, qeyri-müəyyənlik hökm sürürdü. Hüquq və İnsan Haqları İnstitutunun idarə heyətinin sədri M.Quluzadə kitaba yazdığı ön sözdə həmin dövrdəki vəziyyəti belə səciyyələndirmişdir: "Heydər Əliyevin yenidən hakimiyyətə gəldiyi ərəfədə Azərbaycan Respublikası daxili çəkişmələr səbəbindən vətəndaş müharibəsi astanasında idi. Bu, həm də müxtəlif bölgələrdə ayrı-ayrı şəxslərə tabe olan silahlı dəstələrin mövcudluğunda, silahlı dəstələr arasında qarşıdurmada və ölkədə ümumi vahid rəhbərlik altında ordunun olmamasında özünü göstərirdi. Digər tərəfdən, Ermənistan Respublikası nəinki Dağlıq Qarabağı (Xankəndi, Şuşa, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), eləcə də ətrafdakı Laçın və Kəlbəcər rayonlarını işğal etmişdi. Ölkənin mövcudluğu üçün son dərəcə təhlükəli olan iki problem - ölkə daxilində vətəndaş müharibəsi və Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalının davam etdirilməsi, həmçinin başqa çətinliklər - iqtisadi tənəzzül, qaçqınlar və məcburi köçkünlər məsələsi, ordunun dağılması, mənəvi eniş və s. böhran vəziyyətinə səbəb olmuşdu" (İbayev 2025, s. 7).

Fikrimizcə, yaş etibarı ilə hazırda ölkəmizdə kifayət qədər insan həmin dövrdə həyatınının ictimai fəal dövrünü yaşamış və ona görədə sadalanan xüsusiyyətlərin əslində daha çox olduğunu, başqa sözlə Ulu Öndərin hakimiyyətə qayıdışının daha ağır fonda baş veriyini dəqiq xatırlayır. Yeni bərpa olunan dövlətçiliyin möhkəmlənməsi. Milli dövlət idarəçiliyi,yeni iqtisadi model seçimi, ağır sosial-siyasi -iqtisadi şəraitdə cəmiyyətdə mövcudluq və birgə yaşayış ruhunun itməsinin doğurduğu anarxiyalı xaos vəziyyətində baş verən qayıdışı, (sonralar onu,Qurtuluş kimi bayram edəcəyik) ölkənin və dövlətin inkişafında yeni dövrün başlanğıcı kimi qiymətləndirməyə əsas verir. Çünki mövcud vəziyyət ayrı-ayrı istiqamətlərdə fəaliyyətin qurulması və nəticələrin əldə olunmasını tələb edirdi. V.İbayev məhz bu fəaliyyət istiqamətlərinin hər birini ideya kimi təqdim etmişdir. Şübhəsiz ki, bu ideyalar ən mühümü




təcavüzün qarşısının alınması və işğal olunmuş torpaqların qaytarılması təşkli etmişdir. Təbii ki, müstəqilliyin elan olunması, de-fakto bərpası günündən də dövlətin ərazilərinin işğalının yolverilməzliyi və xalqın işğal faktı ilə barışmaz mövqeyi, işğal ərazilərinin azad edilməsi uğrunda mübarizənin vacibliyi fikri aparıcı idi. Lakin bunun necə hansı yollarla edilməsi, torpaqları azad etmək üçün ilk növbədə nəyə nail olunması kimi mühüm işə münasibətdə yekdil fikir, bu işin reallaşdırılmasının taktikası, strategiyası yox idi. Məhz bu strategiyanın və onun reallaşdırılması üçün tələb olunan taktikaların yaradıcısı Ulu Öndər Heydər Əliyev olmuşdur. Nəzərdə tutulan strateji xəttin əsası, dəyişməz məğzi işğal olunmuş torpaqların azad edilməsi, məcburi köçkünlərin öz əzəli, daimi yaşayış yerlərinə qaytarılması təşkil etmişdir. Kitabın müəllifi də bütün əsər boyu bu ideyanın dominantlığını dönə-dönə qeyd etmişdir. Əsərin elə birinci fəslində Heydər Əliyevdən gətirilmiş sitat da fikrimizin doğruluğunu təsdiq edir: "İşıq yolu həqiqətləri özgə torpaqlarının işğalını deyil, Azərbaycan torpaqlarının işğaldan azad edilməsini zəruri hesab edirdi: "Biz faciəli bir dövrdə yaşayırıq. Lakin bu faciə, uğursuzluqlar Azərbaycan xalqının iradəsini qırmayıb. Xalqımızın gücü və iradəsi var və əmin ola bilərsiniz ki, xalq gücünü toplayacaq, birləşəcək, öz torpaqlarını qaytaracaq, işğal olunmuş torpaqlardan erməni silahlı qüvvələri qovulacaq və Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin ediləcəkdir. Biz nəyin bahasına olursa-olsun, bu məqsədə çatmalıyıq. Əmin olun ki, həyatımın son dəqiqəsinə qədər, son nəfəsimədək bu yoldan dönməyəcəyəm"(İbayev 2025, s. 14).

Beləliklə, ilkin, birinci və başlıca ideya belə qəbul edilməlidir: İşğal olunmuş torpaqların azad edilməsi. Suverenliyin zəfər yolu bu ideya üzərində yüksəlmişdir. Azərbaycan xalqı Azərbaycan torpaqlarının işğalı faktına münasibətdə həmişə barışmaz mövqe tutub. Azərbaycan dövlətinin liderləri xalqın bu barışmaz mövqeyini həmişə qabartmış, bu mövqeyin daim qalmasını təmin etmişlər. 30 illik tarixdə bu mövqe müxtəlif sınaqlarla üzləşsə də, son nəticə olaraq heç vaxt dəyişməyib. Ölkədə "Biz torpaqlarımızı işğaldan azad edəcəyik" ideyasıdəyişməz olaraq qalmışdır. Kitabda qeyd etdiyimiz ideyanın dominantlığı yetərincə qabardılmış, fakt və istinadlarla dönə-dönə təsdiq edilmişdir. Biz müəllifin belə bir mövqeyini həm dəstəkləyir, həm də özümüzün məhz bu fikirdə olduğumuzu bir daha təkrarlayırıq.

Reallaşan və hələ də reallaşmaqda olan ideyaları konkret ardıcıllıqla düzərək, onların iyerarxiyasını qurmaqda biz çətinlik çəkirik. Əslində, monoqrafiyada da belə bir ardıcıllığı qurmaq məqsədi nəzərə çarpmır. Bununla belə, torpaqları işğaldan azad etmək ideyasının reallaşması üçün güclü ordu yaratmaq zərurətini bir an olsa belə, unutmaq mümkün deyildir. Ümummilli lider Heydər Əliyev və onun davamçısı İlham Əliyev bu həqiqəti, bu zərurəti həmişə gündəmdə saxlamışdır. Güclü, qadir ordu yaratmaq haqqında müxtəlif fikir və fərziyyələr irəli sürmək, tarixi təcrübədən bəhrələnərək nələrsə demək olar. Lakin cənab İlham Əliyevin belə bir qüdrətli ordu yaratması prosesini aydınlaşdırmaq üçün nə müəllifin, nə də onun yazdığı əsərlə bağlı fikirlərimizi bölüşərkən bizim əlimizdə əsaslı faktlar yoxdur. Bu barədə yalnız Ali Baş Komandan və onun məsləhət-məşvərət etdiyi zabitlər danışa bilər. Ancaq xalq, Azərbaycan vətəndaşları, iqtisadçılarımız cənab İlham Əliyevin Azərbaycan dövlətinin illik büdcə xərclərinin müəyyənləşdirilməsi zamanı hərbi xərclərə münasibəti və çıxışlarında xalq çatdırdığı bəzi fikirləri yada sala bilərik. Sözümün canı ondadır ki, biz Azərbaycanda illərlə güclü ordunun yaradılması haqqında, nə az, nə çox, biz nə bilməliydiksə, o qədər də bilirdik.

44 günlük Vətən müharibəsi başlandıqdan sonra biz adi vətəndaşlar da, düşmənlərimiz də, Azərbaycanın haqq işinə mane olmaq istəyənlər də Azərbaycanın hərb siyasəti, Azərbaycan ordusu, Azərbaycanın döyüş taktikası, hərbdə tətbiq etdiyi yeniliklərlə tədricən, günbəgün tanış olduq. Buna qədər xalq və iqtidar birliyi, xalqın, zabitin, əsgərin mübarizlik ruhu, döyüş qabiliyyəti, Vətən sevgisi kimi ideyalar, hesab edirəm ki, reallaşmışdı və kitabda bu məsələlər müxtəlif aspektlərdən şərh və izahını tapmışdır.

Kitabda diqqəti cəlb edən, həm reallaşan ideyalarla dolayısı, hüquqi əsaslarla birbaşa bağlılığı olan vacib bir istiqamətdən danışmaq, hesab edirəm ki, mütləq lazımdır. Azərbaycan Prezidentinin 44 günlük Vətən müharibəsi dövründəki xalqa müraciətlərində, verdiyi müsahibələrdə bütün baş verən və baş verə biləcək hadisələrin hüquqi əsaslara malik olması, həmçinin həmin hüquqi əsasların Azərbaycanın işinin haqq işi olmasını sübut etməsinə inam aşkar hiss olunur. Monoqrafiyada bu fikirləri təsdiq edən izah, şərh və faktların sadalanması ilə bağlı yerlər çoxdur. Onların bəzilərini nəzərdən keçirək.

Əsərin birinci fəslində Azərbaycan Prezidentinin xalqa müraciətində yer almış "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir" cümlələri artıq başlanmış müharibədə Azərbaycanın haqlı tərəf olması və haqq işini görməsi fikri qəti şəkildə irəli sürülür. V.İbayev bir təcrübəli hüquqşünas kimi göstərir ki, iyul ayında Tovuz istiqamətində baş vermiş təxribatın qarşısını almış Azərbaycan silahlı qüvvələri Ermənistan sərhədlərini keçməmiş və bununla Azərbaycan dövləti beynəlxalq hüquqa, BMT Nizamnaməsinə, ATƏT-in Helsinki Yekun Aktının sərhədlərin toxunulmazlığı, ərazi bütövlüyü, dövlətlərin suverenliyi prinsiplərinə sadiqliyini bir daha nümayiş etdirmişdir.

Ermənistan işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşdırma siyasəti aparmış, həmin ərazilərə erməni əsilli livanlıları yerləşdirmişdir. Qeyri-qanuni məskunlaşdırma 1949-cu ilin Cenevrə Konvensiyası daxil olmaqla, beynəlxalq hüququn ciddi pozulmasıdır. Bu, müharibə cinayətidir.

İlham Əliyev 2020-ci il sentyabrın 21-də BMT Baş Assambleyasının 75 ci sessiyasının Yüksək Səviyyəli İclasdakı çıxışında demişdir: "Ermənistan bu yaxınlarda təcavüzkar və hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul edib. Milli təhlükəsizlik strategiyasında irqçi, şovinist və "Azərbaycanofob" fikirlər əks olunub. Təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirir. Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanın növbəti hərbi təcavüzdən çəkindirilməsinə dəvət edirik". Prezidentin bu çıxışından irəli gələn bəzi məsələlərin şərhi zamanı müəllif qeyd edir ki, "BMT Nizamnaməsinin 51-ci maddəsinə müvafiq olaraq dövlətə silahlı hücum faktını həmin hücuma məruz qalan dövlət müəyyən edir. Təşkilatın üzvü silahlı qüvvələrdən istifadə etməklə özünümüdafiə tədbirlərini həyata keçirərkən bu barədə dərhal Təhlükəsizlik Şurasına məlumat verməlidir. İlham Əliyevin Ermənistanın yeni müharibəyə hazırlaşması və onun dayandırılmasının zəruriliyi barədə BMT-dəki çıxışı preventiv xarakter daşımaqla, məhz BMT Nizamnaməsinin tələblərindən irəli gəlirdi".

Bu fəsildə göstərilir ki, azərbaycanlıların zorla yaşadıqları torpaqlardan çıxarılması BMT Təhlükəsizlik Şurası və Baş Məclisi, Avropa İttifaqı, Avropa Şurası, İslam Konfransı Təşkilatı və dünyanın bir çox dövlətləri tərəfindən təsdiq edilmiş və pislənilmişdir. Avropa Şurası Parlament Assambleyasının 2016-cı il tarixli "Azərbaycan Respublikasının sərhəd rayonlarının sakinlərinin sudan qəsdən məhrum edilməsi haqqında" 2085 saylı Qətnaməsində Ermənistanın Avropa Şurasının tamhüquqlu üzvü kimi üzərinə götürdüyü öhdəliklərinə zidd olaraq işğal olunmuş ərazilərdə əhalinin demoqrafik simasını dəyişməsi, Azərbaycan Respublikasının Dağlıq Qarabağ və digər ətraf ərazilərinin Ermənistan tərəfindən işğalının Azərbaycan Respublikasının Aşağı Qarabağ bölgəsində yaşayan əhalisi üçün humanitar və ekoloji problemlər yaratdığı öz əksini tapmış, Ermənistan silahlı qüvvələrinin sözügedən regiondan dərhal çıxarılması və bu ölkənin hakimiyyətinin su resurslarından siyasi təsir və ya təzyiq vasitəsi kimi istifadə etməyi dayandırması tələb olunmuşdur. BMT Baş Məclisi özünün 62/243 saylı 14 mart 2008-ci il tarixli "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı Qətnaməsində Ermənistanın işğalçılıq fəaliyyətini, o cümlədən işğal olunmuş ərazilərə əhalinin köçürülməsi cəhdlərini qınamışdır. Nəhayət, müəllif qeyd edir ki, "Azərbaycanın güc tətbiq etməklə torpaqlarını azad etmək uğrunda mübarizəyə başlaması beynəlxalq hüququn, o cümlədən BMT Nizamnaməsinin 2-ci maddəsində təsbit olunmuş prinsiplərə zidd deyildi. Bundan əlavə, Nizamnamənin 51-ci maddəsinə əsasən, silahlı hücum hallarında Təşkilat üzvünün tək və ya kollektiv özünümüdafiə hüququ vardır. Yəni silahlı hücumlardan müdafiə olunmaq üçün Təşkilatın üzvü həm tək, həm də kollektiv qaydada silahlı qüvvələrdən istifadə edə bilər". Beləliklə, silahlı hücumlardan müdafiə olunmaq üçün Azərbaycanın silahlı qüvvələrdən istifadə etməsi hüquqi əsaslara söykənmişdir. Məhz bu baxımdan, Azərbaycan haqq yolunda idi, onun işi haqq işi idi.

Əsərin digər fəsillərində də Azərbaycanın haqq işinin hüquqi əsasları sənəd və faktlarla təsdiqini tapır. Bundan əlavə, kitabın müəllifi dünya təcrübəsində özünü göstərmiş oxşar hallarla yeri gəldikcə müqayisələr aparmış Azərbaycanın mövqeyinin həm hüquqi, həm siyasi, həm də humanitar aspektdən əsaslı olduğunu sənəd, fakt və elmi istinadlarla sübut etmişdir.

Bütövlükdə olduqca mühüm əhəmiyyətə malik bu kitabı oxuduqca, biz xəyalən həmin günlərə qayıdır, 44 günü addım- addım bir daha keçirik.Lakin indi 2020-ci ildəki kimi narahatlıq dolu həyacanla yox, Ali Baş Komandanın müharibənin gedişatında fərqli dillərdə və fərqli dəyərlərə,auditoriyalara malik Qlobal mediya fəzasında, dünyanın gözü qarşısında müharibənin taleyinin hələ çoxları üçün qeyri-müəyyən olan vaxtlarında nümayiş etdirdiyi, Qətiyyətinə, Uzaqgörənliyinə, Əzmkarlığına və Vətənpərvərliyinə heyrətlə izləyirik.

Fikrimizcə son 5 ildə dünyada, bizim coğrafiyada və ölkəmizdə baş verən hadisələr, zamanın gedişi və böyük arealda baş verənlər prizmasından geri baxdıqda "Suverenliyin zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar, siyasi paralellər" əsərinin ən mühüm məziyyəti, bütün digərləri ilə yanaşı, 44 günlük Vətən müharibəsində qazanılan Zəfərin Qlobal Tarixi əhəmiyyətinin elmi -populyar sübutudur.

Vəfaddin İbayevin kitabının formalaşma məntiqi və istifadə etdyiyi ifadə və sübutetmə aparatıda olduqca maraqlıdır. Müəllifin tez-tez qədim tarixdən günümüzə qədər dünyanın tanınmış Dövlət xadimləri, hərbi sərkərdələr, mütəfəkkirlər, əsatirlər, şair və yazıçıların əsərlərindən və fikirlərindən iqtibaslar gətirməsi, Haqqın, Ədalətin, İnsanlığın ən böyük carçısı kimi "Qurani- Kərimdən" möhtəşəm sitatları bi kitabı uğurlu Dövlət və hərbi idarəçilik, Cəmiyyətin yaşam fəlsəfəsi və ən mühümü əsil Ziyalı kimiliyi haqqında geniş məlumat bazasına çevirir. Düşünürük ki, bu kitab dövlətçilik və hərb tariximizin öyrənilməsində, gənclərin mili mənəvi dəyərlərlə tərbiyəsində mühüm rol oynayacaq, həmçinin Sözün böyük qüdrəti və cəmiyyətin düzgün maarifləndirilməsinin əhəmiyyətinin hamılıqla bir daha dərk olunmasına təkan verəcəkdir.

**Rasim Tapdıq oğlu Həsənov,**
**İqtisad elmləri doktoru, Əməkdar müəllim, ADİU-nun professoru**
**22.12.2025**